# Böyük 24 aprel yalanı

*(əvvəli qəzetin 24 aprel 2022-ci il tarixli sayında)*

Ermənilər özlərinin kütləvi qırğına məruz qalmaları barədə qondarma iddialarını uzun illər "kütləvi qırğın" və ya "böyük fəlakət" adlandırırdılar. 1948-ci ildə BMT-nin müvafiq konvensiyası qəbul olunduqdan sonra isə "genosid" adlandırmağa başladılar. Onda belə sual yaranır: bəs əslində, həmin 1915-ci ildə Osmanlı dövlətinin ərazisində nə baş verib? Və yaxud, bu köçürmələr 1915-ci ilin mayında baş vermişdisə, ermənilər niyə qondarma soyqırımı günü kimi aprelin 24-nü seçiblər? Tarixi prosesləri obyektiv izləyən hər kəs görə bilər ki, bütün bu qırğınların hamısı 1915-ci ilin aprelinə qədər olub.

Birinci Dünya müharibəsi illərində Osmanlının təbəəsi olan erməni döyüşçüləri xəyanətə əl atır, silahı türklərə qarşı yönəldir, kütləvi şəkildə Rusiyaya tərəf keçirlər. Təbii ki, bu işdə çar Rusiyası da Türkiyəni zəiflətmək məqsədilə fəal rol oynayır və ermənilərdən alət kimi istifadə edir. Arxada isə erməni silahlıları dinc türkləri, müsəlmanları qırıb, hökumət orqanlarına hücum edib, ölkəyə, rəsmi hakimiyyətə qarşı qiyam qaldırırlar. Vəziyyəti nizama salmaq üçün 1915-ci il aprelin 24-də Osmanlı İmperatorluğunun Daxili İşlər Nazirliyi "Təhcir haqqında" qanun qəbul etməyə məcbur olur. "Təhcir" ərəbcə "köç" mənasını verir.

Aprelin 26-da baş komandanlığın yeni əmri çıxır. Bu əmrlə 2345 erməni terrorçusu ölkənin müxtəlif yerlərində həbs edilir. Bunların bir çoxu kəndlərə hücum edərək silahsız əhalini qıran cinayətkarlar idi

27 may 1915-ci ildə "Söbh və isqan haqqında" ("Köç") qanun qüvvəyə minir. Bu qanun Şərqi Anadolu ərazisində daim problem yaradan, xarici qüvvələrlə işbirliyinə girən və əsgəri baxımdan böyük təhlükə törədən əhalinin öz təhlükəsizlikləri üçün daha etibarlı və idarəçilik baxımından da rahat olan ərazilərə köçürülməsindən bəhs edirdi. Göründüyü kimi, qanunda "erməni" kəlməsi işlədilməmişdir. Bu qanun silahlı üsyan törədənləri, düşmənlə əməkdaşlığa girərək casusluq və xainlik edənləri hərbi anlayışlarla müharibə ərazisindən uzaqlaşdırmaq üçün qəbul edilmişdir. Əslində isə araşdırmalar göstərir ki, bu xəyanəti edənlər ermənilər olduğu üçün qanun da onlara şamil edilmişdir. Dövlətə qarşı qiyam qaldıran ermənilər daha təhlükəsiz yerlərə köçürülür. Bu köçürmə prosesi isə sistemli şəkildə aparılıb. Köçürmə zamanı müəyyən problemlər yaşansa da, məqsəd ermənilərə qarşı soyqırımı həyata keçirmək olmayıb. Türkiyənin başlıca məqsədi özünə qarşı arxadan vurulan zərbənin qarşısını almaq olub.

Fakt və sənədlər ermənilərin uydurma "24 aprel soyqrımı"nın əsl mahiyyətini açır. Məlum olur ki, bu hadisələri törədən qiyamçı dəstələrin böyük əksəriyyəti ermənilərdən təşkil edilib. Bütün bunlar isə Osmanlı hökumətinin Daxili İşlər Nazirliyindən Başbakanlığa göndərilmiş 1915-ci il 1 may tarixli məlumatda da öz əksini tapmışdır. Məlumatda qiyamçı erməni dəstələrinin Van, Bitlis, Ərzurum, Adana, Sis, Mərsin, İskəndərun və Antakyadan ölkənin cənub vilayətlərinə köçürülməsi məsələsi də xahiş olunurdu. 1915-ci il 30 may tarixli məlumatda isə köçürülən ermənilərin məskunlaşdırılması, onların iaşə və tibbi məsələlərinin həlli tələb edilirdi. Osmanlı hökumətinin 1 iyun 1915-ci il tarixli digər bir məlumatında isə orduya zərər verilməsinin qarşısının alınması üçün erməni əsgərlərinin döyüş birləşmələrindən çıxarılaraq təchizat birləşmələrinə göndərildiyi və cəbhə bölgəsində məskunlaşmış ermənilərin İraqa köçürüldüyü aydın olur. Bununla da açıq görünür ki, Osmanlı hökumətinin 1915-ci il 24 aprel tarixli "Təhcir qanunu"nda əksini tapmış təhlükəli hesab olunan qiyamçı dəstələr, dövlətə xəyanət edənlər ermənilər arasında daha çox müşahidə edilirdi.

Başbakanlıq Osmanlı arxiv sənədlərində köçürmə zamanı ölənlərin sayı barədə də məlumat verirdi. Belə ki, göstərildiyinə görə, köçürülən 478.758 ermənidən 382.148 nəfəri köçürülən bölgələrə gəlib çatmışdır. Müharibə şəraitinin çətinlikləri, ağır yol həyatı, xəstəliklər və bu kimi səbəblərdən ölən ermənilərin sayı isə 200 min nəfərə yaxın olmuşdur. Bütün bu gerçəkliklərin işığında köçürmə zamanı ölən ermənilərin sayının 1.200.000-dək şişirdildiyi, bunun elmi əsaslara söykənmədiyi və sadəcə təbliğat xarakteri daşıdığı bir daha aydın görünür. Hətta ölənlərin sayı ildən-ilə artırılır. Utanmadan bu rəqəmi indi üç milyona çatdıran erməni boşboğazları da vardır.

Köçürmə dövlətin hesabına həyata keçirilirdi. Ermənilər köçürülərkən onların təhlükəsizliyini və sağlamlıqlarını qorumaq üçün jandarm qüvvələri və həkim dəstəsi ayrılmışdı. Ermənilər Van, Bitlis və Ərzurumdakı vilayətlərin daxilində olan daha təhlükəsiz ərazilərə, indiki Suriya və Livan ərazisinə köçürülmüşdülər. Təbii ki, bu köçürmələr ağrısız-acısız ötüşmür… Üstəlik, birbaşa xəyanətdə əli olan əsgər və zabitlər müharibə qanunları əsasında cəzalandırılırdılar. Tarixi sənədlər sübut edir ki, xəyanət etməyən, dövlətə qarşı çıxmayan ermənilər İstanbulda və Osmanlının digər şəhərlərində azad yaşayıb və onların törəmələri bu gün də Türkiyədə sərbəst həyat sürürlər.

1916-cı il oktyabr ayında olan başqa bir məlumata görə, təxminən 702 min 900 nəfər erməni köçürülmüşdü. Hökumət bu prosesə təxminən 86 milyon lirə xərcləmişdi. Deməli, 24 aprelin soyqırımı kimi qondarılmasının "ermənilərin öldürülməsi" ilə heç bir əlaqəsi yoxdur. Həmin gün erməni terrorçularının həbsi günüdür. Bu gün isə ermənilər heç bir həqiqətə söykənməyən, 1 milyon 500 min nəfər erməninin qırıldığından yazırlar. Həmişə yalan və böhtan yazan ermənilərdən həqiqəti gözləmək özünü aldatmaq kimidir. Faktlar göstərir ki, ölənlər, əvvəla, hərbi əməliyyat meydanında həlak olan ermənilərdir. Və digər bir uydurma ölənlərin sayının bölgədə yaşayan ermənilərin sayından çox göstərilməsidir. Bu da bütün niyyətlərdən xəbər verir. Həmin dövrün rəqəmlərinə diqqət yetirsək görərik ki, öldürülən ermənilərin sayı əvvəlcə 600 min, sonra 800 min, sonra isə 1 milyon 500 min nəfər göstərilir. Ona görə də qondarma "soyqırımı" erməni uydurmasıdır. Tarixi sənədlərin hamısı aydın şəkildə göstərir ki, ermənilərin "soyqırımı" ilə bağlı söylədiklərinin heç bir əsası yoxdur. "Soyqırımı" ermənilərin müasir dövrdə piyarına çevrilib. Bir həqiqəti də unutmaq olmaz ki, əgər həmin vaxt 1,5 milyon erməni öldürülmüş olsaydı, bu gün dünyada barmaqla sayılası qədər erməni qalardı.

Hacı Zeynalabdin Tağıyevin maliyyələşdirdiyi "Kaspi" qəzeti 1914-cü il 18 noyabr tarixli 259-cu sayında yazırdı: "6 vilayətdə 1 milyon 18 min erməni yaşayır". "Baku" qəzetinin 1915-ci il 4 sentyabr tarixli 197-ci sayında "Ermənistanın göz yaşları" məqaləsində göstərilirdi ki, bütün Türkiyədə yaşayan ermənilərin sayı 1 milyon 200 mindir. Onlardan təxminən 250 mini Qafqaza gəlmişdi. Birinci Dünya müharibəsi illərində həmin qəzetdə 200 min yazılır. 700 min nəfər başqa ölkələrə köç edib getmişdi. 280 min erməni daimi məskunlaşdığı yerlərdə yaşamağa davam etmiş və islamı qəbul etmişdi. Ancaq göstərilən real mənzərə ilə hesablaşmayan ermənilər heç bir əsası olmayan, 1920-ci illərdə Aram Andonyan adlı erməni tarixçinin Londonda, Parisdə və Bostonda (ABŞ) "Naim bəyin xatirələri: ermənilərin köçürülməsi və qətli haqda rəsmi türk sənədləri" adlı dərc etdirdiyi kitablara və kitabda Tələt paşanın qondarılan teleqramlarına istinad edərək erməni "soyqrımı"nın olduğunu israr edirlər.

Bu kitablarda əsassız olaraq Tələt paşaya aid olduğu iddia edilən və ermənilərin kütləvi qətlini əmr edən 50 teleqram və 2 məktub var. Andonyanın iddiasına görə, guya, bu "materialları" Hələbi tutmuş general Allenbinin ordusu aşkar etmişdir. Bir sıra erməni və ermənipərəst tarixçilər bu materialların saxta olmadığını və erməni soyqırımını sübut edən faktlardan biri olduğunu deyirlər. Maraqlıdır ki, ingilis ordusu İstanbulu işğal etdikdən sonra "gənc türklər"in "hərbi cinayətlər törətmiş" nümayəndələrinin məhkəmə qarşısına çıxarıldığı "İstanbul hərbi tribunalı" A.Andonyanın materiallarını saxta saymış və bunu sübut kimi qəbul etməmişdir. Bir gədər sonra Berlində Tələt paşanı qətlə yetirmiş Soqomon Teyleryanın məhkəməsi zamanı "erməni soyqırımı"nın sübutu kimi təqdim olunmuş "Tələt paşanın teleqramları" yenə də dəlil olaraq qəbul edilmir, sənədlərin ekspertizasını keçirən Berlin kriminalistika bürosunun ekspertləri sənədlərin saxta olduğu qənaətinə gəlirlər.

Bütün bu deyilənlərlə yanaşı, erməni ideoloqlarının və onların havadarlarının iddialarını alt-üst etmək üçün türk tarixçisi Ali Karacanın 2003-cü ildə İstanbulda nəşr olunan "Türkiyede ermeniler için yapılan reformlar ve Tehcir gerçeği" əsərində "Təhcir qanunu"nun əsas ideoloqu olan, buna görə də erməni terrorçusu tərəfindən qətlə yetirilən Osmanlı dövlətinin Daxili İşlər naziri Tələt paşanın bu köçürülmənin səbəblərini necə açıqladığını diqqətə çatdırmağı məqsədəuyğun hesab edirik: o qeyd edirdi ki, "Osmanlı dövlətinin bütövlüyü və dövlətin əleyhinə çalışan Avropa dövlətlərinin şirin vədləri ermənilər arasında gündən-günə genişlənmişdir. Bu vədlərdən ruhlanan erməni icmaları silahlı üsyan şəklində dövlətin bütövlüyünü təhlükə altına alır, dövlətin arzu etmədiyi bir çox hadisələrə yol açırlar. Xalqın və dövlətin birliyini qorumaq üçün erməni, rum və ərəblər Ərzurum, Van, Bitlis vilayətləri ilə Adana, Sis, Mersin, Maraş və Hələbin mərkəzi istisna olmaqla, Adana, Mersin, Kozan livaları ilə Maraş sancağı, mərkəz qəzaları istisna olmaqla, İskəndərun, Beylan və Antakya qəzalarının kənd və qəsəbələrində təhlükəli görünən ermənilər Suriya və İraqın şimalına – Urfa, Zor, Hələb, Harran, Mosul, Diyarbəkir və Cizrə bölgələrinə köçürülmüşdür". Tələt paşanın "Təhcir qanunu" ilə bağlı bu məzmunlu şərhindən görünür ki, dövlətin bütövlüyünə zərbə vuran və silahlı üsyan edənlər daha çox imperiyanın erməni əhalisi olmuşdur. Bununla da Şərqi Anadoluda yaşayan ermənilərin Osmanlı imperiyasının daxili rayonlarına köçürülməsinin bəzi səbəblərini aşkarlamaq olur.

Yaşanan hadisələr göstərir ki, Osmanlı dövlətinin bütövlüyünə qarşı çıxış edən ermənilər əvvəldən silahlanmışlar. Rus qoşunları sərhədi keçən kimi onlara qoşulmuşlar. Bütün Osmanlı ordusu cəbhədə düşmənlə vuruşduğu halda, imperiyanın erməni əhalisi arxada üsyan və terrora əl ataraq yaşadıqları ölkəyə və dövlətə xəyanət yolunu tutmuşlar. Bununla da elə bu köçürülmənin əsas günahkarları erməni millətçiləri özləri olmuşlar. Ermənilər rus ordusunun tərkibində müharibəyə qatılmaqla, əslində, özləri üçün problem yaratmışlar. Erməni millətçiləri və "ziyalıları" sübut etmək istəyirlər ki, Osmanlı hökumətinin bu qərarı ilə etnik təmizləmə siyasəti aparılmış, Birinci Dünya müharibəsi illərində Osmanlı ərazisində bir milyondan çox erməni öldürülmüşdür. Onlar fakt kimi müharibəyə qədər Osmanlı ərazisində ermənilərin sayının 2,5 milyon nəfər olduğunu göstərirlər. Halbuki Osmanlı dövlətinin rəsmi məlumatına görə, müharibəyə qədər Şərqi Anadoluda müsəlmanlar da daxil olmaqla 3.500.000 əhali yaşayırdı. Bunlardan Türkiyənin şərqində 800.000-i, Anadolunun digər bölgələrində isə 450.000-i erməni idi. Bununla rəsmi məlumatlar göstərir ki, bütün imperiya ərazisində 1.250.000 nəfər erməni yaşayırdı. Görünür, ermənilərin iddia etdiyi əhalinin yalnız üçdəbiri döyüş əməliyyatları gedən ərazidə yaşayırmış. Belə olan halda Osmanlı ərazisində 1 milyondan çox erməninin kütləvi şəkildə qırılması iddiası sadəcə gülüş doğurur. Göstərilən bu fikirlər və əsaslı faktlar erməni nümayəndə heyətinin rəhbəri B.Nübar paşanın 1918-ci ildə Fransa Xarici İşlər Nazirliyinin səlahiyyətli nümayəndəsinə göndərdiyi məktubunda da öz təsdiqini tapır. Poqos Nübar paşa köçürülənlərin ümumi sayının 600-700 min nəfər olduğunu göstərir. Osmanlı sənədlərində isə təhcir edilən ermənilərin sayının 478.758 nəfər olduğu qeyd olunur. Belə bir ətraflı şərhdən sonra Nuru paşanın "Erməni nə vaxt və necə, harada ölməsindən asılı olmayaraq başını məzardan qaldırır və qışqırır: mən kütləvi qırğın zamanı öldürülmüşəm" sözləri yerinə düşür. Bütün bu göstərilən faktlar, izahlar və şərhlər bir daha əminliklə deməyə əsas verir ki, Osmanlı hökumətinin məlum qərarı heç bir fiziki yoxetməyə, soyqırımına səbəb olmamışdır. Rəsmi sənədlərdə isə erməni ideoloqlarının bütün dünyanı inandırmağa çalışdığı "ermənilərin kütləvi şəkildə qırılması" deyil, "silahlı üsyan edənlərin, düşmənlə əməkdaşlığa girərək casusluq edənlərin, yaşadığı ölkəyə xəyanət edərək arxadan zərbə vuranların köçürülməsi" əksini tapmışdır.

Qondarma "erməni soyqırımı" məsələsinin harada və necə müzakirə edilməsindən asılı olmayaraq, ümumilikdə, bu, həm Türkiyəyə, həm də Azərbaycana qarşı yönəldilmiş bir mövzudur. Belə iddialar həqiqətdən uzaq olmaqla yanaşı, erməni lobbisinin, Ermənistan dövlətinin və onlara havadarlıq edən bəzi imperialist güclərin siyasi ambisiyalarına xidmət edir. Hər il aprel ayının 24-də dünyanın aparıcı ölkələrində əlləri yüz minlərlə türkün qanına boyanan, qatı şovinistliyi ilə tanınan, türk düşmənçiliyini dövlət siyasətinə çevirən erməni daşnakları uydurma "erməni soyqırımı" yalanını təmtəraqlı şəkildə qeyd edirlər. Onlar erməni millətini "məzlum", "əzabkeş" qismində dünya birliyinə təqdim etməyə çalışırlar. Bəs, görəsən, niyə xatırladılmır ki, XIX əsrin əvvəllərindən çar Rusiyasının Cənubi Qafqazın işğalına başlaması ilə İrandan və Osmanlı imperiyasının ayrı-ayrı əyalətlərindən köçürülən ermənilər tədricən Azərbaycan ərazilərində yerləşdirilməklə imperiya maraqlarına uyğunlaşdırılmışdı. Niyə deyilmir ki, 1918-ci ilin mart günlərində ermənilər təkcə Bakıda üç gün ərzində 12 min, Şamaxıda 8-12 min, bütövlükdə qəzanın 72 kəndində 40 min, Quba qəzasında 7-8 min nəfərdən çox, Zəngəzur qəzasında 10068 nəfər azərbaycanlını qanına qəltan etmişlər.

Hələ 2005-ci ilin aprel ayında Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Ermənistanın sabiq prezidenti R.Koçaryana müraciətlə qondarma "erməni soyqırımı" iddialarının araşdırılması üçün müştərək komissiya yaradılmasını, bu məsələ ilə bağlı bütün sənədlərin arxivlərdən üzə çıxarılmasını təklif etmişdi. Türkiyə Arxivləri İdarəsinin rəhbəri Yusuf Sarınay isə ermənilərin hər il aprelin 24-ü tarixini dünyaya "erməni soyqırımı günü" kimi təqdim etmələrinin yalan olduğunu sübuta yetirmək məqsədilə Osmanlı dövrünə aid arxivlərin qapılarını dünya ölkələrinin tarixçilərinin, alimlərinin üzünə açdıqlarını bəyan etmişdir. Bu təklifə indiyədək cavab verməyən ermənilərin real faktlara əsaslanmadığı, bu qondarma iddiadan ideoloji və siyasi məqsədlərlə yararlandığı indi dünya ictimaiyyətinə də yaxşı bəllidir. Deməli, qondarma "erməni soyqırımı" ilə bağlı qətnamə və bəyanat qəbul edən dövlətlərin nümayəndələri nə Türkiyə, nə digər Qərb dövlətlərinin arxivlərində olmuş, sadəcə, siyasi motivli qərəzli və ədalətsiz qərarı rəsmiləşdirmişlər. Belə qərar qəbul edən dövlətlərin əksəriyyətinin Avropa İttifaqının üzvü olması da təsadüfi görünmür. Siyasi müşahidəçilərin fikrincə, həmin dövlətlər bu cür süni maneələrlə müsəlman dövləti olan Türkiyənin təşkilata gedən yoluna sipər çəkməyə, Avropa İttifaqını "xristian evi" kimi qoruyub saxlamağa çalışırlar.

Çox təəssüf ki, yarandığı vaxtdan etibarən ATƏT-in Minsk qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, indiyə qədər bu qurumun fəaliyyəti sülh prosesində arzuolunan nəticəni verməmişdir. ATƏT çərçivəsində yaradılan Minsk qrupu və bu qrupa həmsədrlik edən ABŞ, Fransa və Rusiya kimi böyük dövlətlər münaqişənin dondurulmuş şəkildə qalmasında məsuliyyət daşımamış və təcavüzkara qarşı heç bir təzyiq göstərmək niyyətində olmamışlar.

Tarix boyunca etnik azlıqlarla münasibətlərini müasir dövlətlərdən də üstün bir səviyyədə quran Osmanlı dövlətinin XX əsrdə belə bir cinayətə baş vura biləcəyini düşünmək son dərəcə yanlışdır. Hər şeydən əvvəl, ona görə ki, əgər milli baxımdan sırf ermənilər hədəf alınsaydı, Osmanlı dövründə onlardan paşa, nazir, millət vəkilləri çıxa bilərdimi? Osmanlı imperiyasındakı azlıqların vəziyyəti obyektiv baxışla dəyərləndirilərsə, ermənilərin dil və din azadlığına sahib olduqları, hərbi xidmətə çağırılmadıqları, ticarət haqqını əldə etdikləri, dövlətin üst səviyyəli postlarında yer tutduqlarını görmək olar. Tarixi materiallarda vaxtilə millətisadıka (sadiq millət) olaraq xarakterizə edilən ermənilərdən 29 paşa, 22 nazir, 33 millət vəkili, 7 səfir, 11 baş konsul, 11 universitet müəllimi, 41 yüksək rütbəli məmur olduğu göstərilir. Hətta Osmanlı dövlətində ermənilərə "əhli-kitab" statusu içərisində dini tolerantlıq da göstərilmiş, çox sayda erməni kilsəsinin açılmasına icazə verilmişdir. Belə bir vəziyyətdə Osmanlının ermənilərə soyqırımı tətbiq etdiyi şəklində önə sürülən iddiaların əsassız olduğu ortaya çıxır. Həmin iddiaların əksinə, soyqırımına məruz qalan onlar deyil, türklər olmuşdular.

"Erməni soyqırımı" deyilən məsələ qondarmadır. Bu, bir sıra dövlətlərin maraqları baxımından ortaya atılıb. Ondan bir alət kmi istifadə edilib. Ermənistan heç bir zaman "erməni soyqırımı" iddiasından imtina etməyəcək. Ona görə ki, bu, həm Ermənistandakı, həm xaricdəki ermənilər üçün bir vasitə halına gəlib. Əgər "soyqırımı" məsələsi aradan götürülərsə, o zaman erməni birliyi dağılmış olar. "Soyqırımı" bütün erməniləri birləşdirən bir çağırış halına gəlib, onların alver predmetinə çevrilib.

Ermənilər qondarma iddialarını "soyqırımı" adında 1965-ci ildən gündəmə gətiriblər. Kilsənin irəli sürdüyü iddialar Amerika və Avropada erməni lobbisinin dəstəyi ilə böyük bir kampaniyaya çevrilib. Ermənilər ilk "soyqırımı" qərarının qəbuluna Uruqvayda nail olublar. 1965-ci il aprelin 20-də Uruqvay parlamenti 24 apreli "Erməni soyqırımını anma günü" kimi tanıyıb. Uruqvay parlamenti 2004 və 2005-ci illərdə daha iki bəyanatla qərarını yeniləyib. Bundan 17 il sonra – 1982-ci il aprelin 29-da Kiprin Yunan icması analoji qərarı qəbul edib. Sonra Fransa, Belçika və digər dövlətlər eyni qərarı qəbul ediblər. Amma bu dövlətlərin sayı o qədər də çox olmayıb. BMT-nin üzvü olan 193 dövlətdən cəmi 26-sı ermənilərə "səs" verib. Deməli, tanıtım gözlənilən nəticəni verməyib. Ermənilərin məqsədi əvvəlcə qondarma "soyqırımı"nın dünya dövlətləri tərəfindən tanıdılmasına nail olmaqdır. Sonra Türkiyədən təzminat tələb etmək və daha sonra isə torpaq iddiasını gündəmə gətirməkdir. İllərdir ki, qondarma soyqırımının dünya dövlətləri tərəfindən tanıdılmasına ermənilər milyonlarla vəsait xərcləyirlər.

"Erməni soyqırımı"nı tanımış ölkələr aşağıdakılardır:

Uruqvay – 20 aprel 1965, 2004, 2005, Cənubi Kipr – 1982, Argentina – 1993, 2003, 2004, 2005, 2006, 2007; Rusiya – 1995, 22 aprel 2005; Yunanıstan – 25 aprel 1996; Kanada – 1996, 2000 və ən son olaraq 21 aprel 2004; Livan – 1997, 11 may 2000; Belçika – 26 mart 1998; Vatikan – 2000; İtalya – 17 noyabr 2000; Fransa – 18 yanvar 2001; İsveçrə – 16 dekabr 2003; Slovakiya – 30 noyabr 2004; Hollandiya – 21 dekabr 2004; Polşa – 19 aprel 2005; Almaniya – 1 iyun 2016; Venesuela – 14 iyul 2005; Litva – 15 dekabr 2005; Çili – 2007; Boliviya – 2014; Braziliya – 2015; Lüksemburq – 2015; Bolqarıstan – 2015; Avstriya – 2015 və Suriya – 2015. Beləliklə, ötən əsrin 50-ci illərindən başlanan kampaniya nəticəsində ermənilər 26 dövlətdə rəsmi qərarın qəbuluna nail olmuşlar. Daha 2 dövlətin – İsveç və ABŞ-ın Xarici Əlaqələr Komitəsi müvafiq qətnamə layihəsini təsdiqləyiblər.

Bütün bunlar göstərir ki, xristian dünyasında qondarma "erməni soyqırımı" ilə bağlı başlanmış kampaniyanın kökündə Türkiyə və Azərbaycana təsir göstərmək, hər iki qardaş və strateji müttəfiq ölkəni prinsipial mövqeyindən çəkindirmək niyyəti dayanır. Bu qondarma təbliğat yolu ilə hər il xristian dünyası ermənilərin XX əsrin əvvəllərində və sonlarında Anadolu və Azərbaycan türklərinə qarşı apardıqları etnik təmizləmə siyasətini və soyqırımını pərdələməyə çalışır. Erməni daşnakları hər an Azərbaycan türklərinə qarşı soyqırımını davam etdirmək niyyətində olduqlarını numayiş etdirirlər. Nəhayət, onlar uydurma soyqırımını dünya birliyinə tanıtdırmaqla Türkiyə Cümhuriyyətindən təzminat almaq, torpaq qoparmaq iddiasından əl çəkmək fikrində olmadıqlarını açıq şəkildə bəyan edirlər. Bu mənada "qondarma erməni soyqırımı" iddialarına qarşı mübarizə aparmaq və Qarabağ probleminin həlli istiqamətində səy göstərmək harada doğulub və yaşamasından asılı olmayaraq hər bir türkün – azərbaycanlının əsas vəzifəsi olmalıdır. Biz bu iddiaların qarşısını almaq üçün tarixi həqiqətləri bütün dünyaya daha geniş şəkildə çatdırmalıyıq.





***Şikar QASIMOV,***
***tarix elmləri doktoru, professor***